# Türk Kültüründe Ağrı Dağı

Yayına Hazırlayan
Prof. Dr. Oktay BELLİ

ATATÜRK
KÜLTÜR
MERKEZİ

T.C. Başbakanlık
Atatürk Kültür, Dil ve Tarih Yüksek Kurumu
**Atatürk Kültür Merkezi Yayını: 365**
Bilimsel Toplantılar Dizisi: 42

ISBN: 978-975-16-2148-1
İLESAM: 2009.06.Y0143-357

Yayına Hazırlayan
Prof. Dr. Oktay BELLİ

Düzeltme
Şebnem ERCEBECİ

I. ULUSLARARASI TÜRK KÜLTÜRÜNDE
AĞRI DAĞI SEMPOZYUMU
©Atatürk Kültür Merkezi 2009
Birinci Baskı • 1500 Adet

Atatürk Kültür Merkezi
G.M.K. Bulvarı 133, 06570 Maltepe - Ankara
Tel : 0 312. 231 23 48 - 232 22 57
Belgegeçer : 232 43 21
e-posta : gensekreter@akmb.gov.tr
Internet : www.akmb.gov.tr

Kapak Fotoğrafı: Büyük ve Küçük Ağrı Dağı' (nın çeşitli görünümleri)

**Kapak Tasarım ve Sayfa Mizanpajı**
**Grafiker**
Grafik-Ofset Matbaacılık Reklamcılık
Sanayi ve Ticaret Ltd. Şti.
1. Cadde 1396. Sokak No:6 06520 Balgat / Ankara
Tel: 0 312. 284 16 39 (pbx) • Faks: 0 312. 284 37 27
E-mail: grafiker@grafiker.com.tr
Web: www.grafiker.com.tr

**Baskı ve Cilt**
Başak Matbaacılık ve Tanıtım Hizmetleri Ltd. Şti.
Macun Mahallesi Anadolu Bulvarı No:5/15 Gimat - Yenimahalle / Ankara
Tel: 0 312. 397 16 17 • Faks: 0 312. 397 03 07

Yazılı metinden yasalar uyarınca alıntı yapılabilir. Ancak fotoğraflardan alıntı yapılamaz;
fotoğraflar sanal, elektronik ortama aktarılamaz, çoğaltılamaz ve başka hiçbir yerde hiçbir şekilde kullanılamaz.

---

Türk Kültüründe Ağrı Dağı (2008:Iğdır)
Türk Kültüründe Ağrı Dağı, Iğdır 28-29 Haziran 2008: Bildiriler / yay.haz: Oktay Belli.- Ankara: AKDTYK Atatürk Kültür Merkezi, 2009.
X,416s.: hrt.: res. ; 32cm.-(Atatürk Kültür, Dil ve
Tarih Yüksek Kurumu Atatürk Kültür Merkezi Yayını: 365, Bilimsel Toplantılar Dizisi: 42)
ISBN: 978-975-16-2148-1
1. AĞRI DAĞI (TÜRKİYE) - KONGRELER, VB.
I. Belli, Oktay. yay. haz. II. E.a. III. Seri
910.914 35 662

# Azerbaycan Folklorunda **Nuh'un Tufanı ve Ağrı Dağı Efsaneleri**

Yusif SEFEROV*

## Giriş

Azerbaycanın qedim Naxçıvan bölgesi ilkin, arxaik ve zengin şifahi yaradıcılığı ile Azerbaycan folklorunda özünemexsus yer tutur. Bele örneklerden biri "Nuhun tufanı" ve Ağrıdağla bağlı efsanelerdir. Bunların süjet ve mezmunlarını, bezi epizod ve obrazlarını araşdırmaq xüsusi elmi ehemiyyete malikdir.

Naxçıvan regionu ile bağlı olan "Nuhun tufanı" efsanesinin qısa mezmununa göre Nuh Nebi bilirdi ki, insanların günahı üzünden dünyanın üzünü su alacaq. Günbatandakı meşeden iri ağaclardan qırdırıb yeddi ustanın kömeyile böyük bir gemi düzeltdi. Öz arvad-uşağını ve her canlıdan bir cüt götürüb gemiye mindi. Gemi Ağrıdağa, Naxçıvanın Elinceçay yaxınlığındakı İlanlı dağa, Arazdan cenubdakı Kemki, bir de Ordubadın başı üstündeki Elengez dağlarına toxunub keçdi. Nuh Gemiqayada lövber saldı. Geminin deydiyi dağlara Nuh ad verdi (5, s. 66-69).Efsanenin bu variantına çox yaxın olan ikinci bir süjete göre, gemi Ağrıdağda quruya oturub. Bu süjet efsanenin daha çox yayılanıdır.

Efsanenin ilk yazılı variantı eramızdan evvelki ikinci minilliyin ortalarına aid olan şümer efsanesidir. Hemin efsaneye göre, ümumdünya daşqınından böyük bir gemide yalnız "emelisaleh" Ziusudra xilas ola bilmişdir.

Yeni eradan evvelki ikinci minilliyin ortalarına aid Bilqamıs haqqındakı akkad dastanında deyilir ki, Utnapiştim "bütün canlıların toxumunu götürerek, Ea allahın mesleheti ile düzeltdiyi gemide daşqından xilas olmuşdur. "Atraxasis" dastanı adlı diger bir akkad eposunun parçalarında da ümumdünya daşqınından behs olunur. Onun sebebi bele izah olunur ki, nesli çoxalmış insanların ses-küyü hava allahı Enlinin yatmasına mane olduğuna göre o, hemin daşqını beşeriyyete ceza üçün göndermişdir. "Ehdi-etiq"deki yehudi efsanesinde de hemin ümumdünya daşqınından danışılır. Deyilir ki,yer üzünde çox böyük günahlar olduğundan dünya daşqını bütün canlıları mehv etmek üçün baş vermişdir. Nuh peyğemberin ve onun ailesinden, yeddi cüt "temiz", yeddi cüt "natemiz" heyvandan ve quşdan başqa yer üzünde mövcud olan her bir şeyi mehv etmişdir. Nuh peyğember ise allahın emri ile düzeltdiyi gemide öz ailesi ve götürdüyü canlılarla birlikde xilas olmuş ve Naxçıvan erazisinde mesken salmışdır"(2, s.27; 17, s.122, 124). "Nuhun tufanı" "Qurani Kerim"in 71-ci "Nuh" suresinde de eksini tapmışdır.

"Ümumdünya" daşqınının arxaik variantları ile Naxçıvandan toplanmış xalq efsanesi arasında böyük ferq yoxdur. Ümumiyyetle, bunlarda eyni, yaxud çox oxşar fikirler ifade olunur. Variantlar forma ve mezmununa göre çox yaxındır. Coğrafi baxımdan ise bezileri müxtelif yerlerle bağlıdır. Şerqde bele süjetlerden biri hind mifologiyasında mövcuddur (25,

* Dr., Nahçivan Kütüphanesi Müdürü, Nahçıvan - AZERBAYCAN, e-posta:ndu@ndu.edu.az

s.19). Burada Nuhun evezine Manu adlı peyğember çıxış edir. O, gemisi ile Hindistanın Himalay dağlarında tufandan xilas olur. Elece de Çin ve Misir mifologiyasında bele süjetler melumdur. Bunlardan hansı xalq efsanesi üçün qaynaq ola biler?

Bu qedim süjetlerin hamısında ümumdünya daşqınından danışılır. Variantlardan aydın olur ki, daşqının yaranmasına bu ve ya diger şekilde "emeli-saleh" olmayan insanlar sebeb olmuşlar. Efsaneye göre, allah-talanın öz günahkar bendelerine qezebi tutmuş, onları en ağır cezaya-ölüme düçar etmişdir. Menbelerde verilen bu melumatlardan aydın olur ki, efsanenin qedim variantları xalq efsanesine çox yaxındır. Bele olduqda xalq efsanesine daha yaxın olan yehudi variantı ilk menbe ola bilermi? Bununla bağlı bezi meseleleri qeyd edek.

Assuriyanın merkezi Nineva (İraq) xarabalıqlarında qazıntı zamanı mixi yazılı bir çox gil lövhecikler aşkar edilmişdir. Bunlardan birinde "Nuhun tufanı" nın mezmunu verilmişdir (20, s.14,15). Bununla bağlı R.Sultanov "Nuh tufanı" haqqında heqiqet eserinde yazır: "Maraqlıdır ki, burada dünya tufanı ve Babilistanın yaranması haqqında efsaneler "Tövrat"da yazılanların sanki eynidir. İngilis alimi Corc Simitin tedqiqatına göre, xaldeyler bunları heç de Musadan, yeni "Tövrat" dan götürmemişler" (25, s.22).

Müellif yene eserin başqa yerinde yazır: "xıv Lüdovikin hekimi İoan Astirikin ve meşhur ilahiyyatçı (teoloq) De Vettanın tedqiqatına göre, "Tövrat"dakı "Nuhun tufanı" revayeti iki böyük menbeden götürülmüşdür. Bunların birincisine göre, tufan yeni eradan doqquz esr, ikincisine göre altı esr evvel baş vermişdir. Yeni eradan 3800 il qabaqkı Babilistan melumatına esaslanaraq tufanın daha evveller baş verdiyini söyleyirler". "Tövrat"da gösterilen tufanı tebii bir hadise kimi aydınlaşdırmağa çalışanlar da çox olmuşdur. Bunu Xaldey kahini Berozusun (yeni eradan evvel 320-260-cı iller) eserinden qalmış hisselerden, elece de yunanıstanlı Aleksandrın eserlerinden de görmek olar (25, s.21,22). "Assuriya tarixini öyrenen bütün alimler bele neticeye gelmişler ki, "Tövrat" hekayeti-xaldey çoxilahili politeist efsanesinin monoteist (tek allahlıq) şeklini daşıyır" (25, s.26).

Diger tedqiqatçılar terefinden de qebul edilen bu fikre göre, "Tövrat"da tesvir olunan yehudi efsanesi ilkin menbe olmayıb özünden evvelki menbelerden alınmışdır. Yeri gelmişken bir meseleni de xatırladaq. A.Kondratov yazır ki, "Tövrat"a inansaq, dünya texminen 7 min il bundan evvel yaranmışdır. Lakin ele xiristian ve yehudilerin müqeddes kitabının müelliflerinin veteni Felestinde 60 min il bundan evvel yaşamış ibtidai insanın izleri tapılmışdır (17, s.202). Demeli, "Tövrat" ilkin menbe sayılmır.



İran'ın Maku şehrinden Büyük ve Küçük Ağrı Dağı'nın görünüşü (M. Lortoğlu)

Xalq efsanesi qeyd olunan variantlarla müqayise olunduqda, ümumiyyetle, aşağıdakı oxşar ve müşterek cehetler meydana çıxır.

İnsanların günahı "dünya tufanı" yaradır; tufandan yalnız "emelisaleh" efsane qehremanları ve gemideki canlılar xilas ola bilir. Daha doğrusu, efsane variantlarında bele bir fikir ifade olunur ki, müasir insan "ikinci cehdden yaranmışdır", bu cehdden evvel Ademle Hevva neslinden yaranmış insanlar ise allahın, yaxud allahların qezebine düçar olmuşdur.

Bu oxşar müşterek cehetler efsanenin süjet qedimliyini göstermekle daha çox eski variantlardan faydalandığını gösterir. Yehudi variantının özünden evvelki menbelerden alındığı, daha doğrusu, qedim variantların monoteist şeklini daşıdığı qeyd olundu. Deyilenleri nezere alsaq, akkad dilindeki şumer efsanesinin qedim menbe olduğu özünü tesdiq etmekdedir. Diger fikre göre, bu efsane qedim hind menbelerinden alınmışdır [25, s.19]. Lakin birinci fikrin daha esaslı olduğunu gösterenler çoxdur. Beleki, "eramızdan evvelki üç mininci ile istinad edilen bir efsanede tufanın tesviri verilir. Burada Nuhun evezine Şumer allahı çıxış edir. O da Nuh kimi gemi düzeldir" [16, s.83]. Ümumiyyetle, qedim şerq kitablarında, elece de hind menbelerinde tesvir olunan "Nuhun tufanı" şumerlerin "Bilqamıs" dastanından alınmışdır [7, s.6].

Efsanedeki "dünya" anlayışı tufan hadiselerinin beynelxalq süjetini ve müxtelif erazilerle bağlı oxşar variantlarının yaranmasında esas amil olmuşdur. Bele amiller efsanenin qedim variantlarla kök bağlılığını ve eyniliyini qoruyub saxlamışdır.

"Nuhun tufanı" ile bağlı Naxçıvan sözünü "birinci dayanacaq" kimi izah eden müelliflere esaslanıb şeherin esasının eradan evvel 1539-cu ilde qoyulduğunu, şeher erazisinden tapılmış maddi-medeniyyet qalıqlarının dövr etibarile bu tarixe uyğun geldiyini gösteren müellifler vardır [30, s.11,41]. Maraqlıdır ki, Naxçıvanın bu inşa tarixi efsanenin şumerler terefinden yazıya alındığı dövrle eyni vaxta tesadüf edir. Toponimin qedimliyi de bezi efsane ve revayetlerin yaranması üçün qaynaq olmuşdur. Ümumiyyetle, Naxçıvan sözü arxaik revayetlerde "Nuhun tufanı"ile çox elaqelendirilir. Bu sözü Nuhla bağlayan efsaneler de melumdur.

Xalq efsanesine gore, Nuhun adverdiyi yerlerindağların ekseri Naxçı-vandadır, bezileri ise bugünkü inzibati erazi bölgüsüne göre heç de Naxçıvandan uzaqda deyil. Bunlar onu gösterir ki,xalq efsanesi coğrafi cehetden daha çox Naxçıvan regionu ile bağlıdır. Folklorşünas T.Ferzeliyev de bu haqda yazmışdır:

"Beynelxalq seyyar motivli "Nuhun tufanı"nda hadiselerin merkezinde Ağrıdağ dayanır.

Coğrafi cehetden Azerbaycanla bağlı olan ve yerli zeminle elaqedar müxtelif variantlar kesb eden bu efsane bir çox dünya xalqlarının antik şifahi, yazılı menbelerinde de müxtelif teferrüatlarla qorunub saxlanmışdır"[11, s.38].

Tufan hadiselerinin elmi izahı ile bağlı maraqlı fikirler söylenmişdir. Hadiselerin reallığı ile bağlı mövqeler ikili şekildedir. Bezi müellifler bunu tesdiq, bezileri tekzib etmişler. Tufan hadisesinde reallıq axtaranların ehtimalına göre, daşqın Decle, Ferat çaylarının daşmasından baş vermişdir. Onda ehtimal ki, Araz çayı da daşmışdır. Naxçıvan erazisinden axan bu çay "en qedim zamanlardan Araks, Ar-Ras, Rass, Aras, Araz adlandırılmışdır" [1, s.27,28]."Araz"sözünün şumerce "dağıdan çay"menasını [19, s.20],elece de haqqında efsaneler olduğunu nezere alsaq, bu ehtimala inam daha da artır.

Bundan bele qenaete gelmek olar ki, efsanelerin mezmunu, mahiyyeti daha çox hadiselerin bünövresile bağlıdır. Xalq efsane ve revayetlere tam inamla yanaşır [29, s.16 ].Eks halda, heqiqetden uzaq olan efsane ve revayet heç bir xalqa,dağa, daşa, çaya bağlanıb qala bilmez, yaddaşlardan silinib gederdi.

Deyildiyi kimi, efsanenin birinci variantında Nuhun gemisi Gemiqayada lövber salmış, ikinci variantına göre ise Ağrıdağda dayanmışdır [5s.243-244;28,s.44,45]. Deyilene göre, geminin qalıqları Gemiqayadakı "Ayı çuxu-ru"deyilen yerde qalırmış. Revayete göre, Nuhun ve arvadının qebri de Naxçıvandadır.

Naxçıvanda Nuhdaban adlı yer var. R.Memmedov ermeni tarixçisi Camçıyanın Nuhun gemisi ve qebrinin Naxçıvanda olduğunu yazdığını qeyd etmişdir [18, s.19 ].Bezi tarixçiler de İran Azerbaycanının qedim şeheri Erdebilin bünövresinin Nuhun yeddinci nevesi Erdebil Araz [Erec] oğlu terefinden qoyulduğu iddiasındadırlar.

Onu deyek ki, efsanenin seyyar süjetinin tesirile Yaxın ve Orta Şerq xalqları arasında bezi variantlar da yaranmışdır. Bu variantlılıq folklora xas xüsusiyyet olmaqla efsanenin yayıldığı xalqların tarixi, medeni elaqelerinden, bezileri arasında olan tarixi kök qohumluğundan ireli gele biler.

Coğrafi cehetden Naxçıvan torpağı ile bağlı efsanede "Naxçıvan" sözü ümumi şekilde işlenmir, yaxud tesadüfden-tesadüfe çekilmir. Buranın ekser dağ ve qayalarının adı efsane ile bağlıdır. Efsaneden ve qeyd olunan melumatlardan göründüyü kimi, Naxçıvan şeherinin, onun bezi kendlerinin, hetta bu

regionda bir çox dağların, qayaların adları bele Nuhla elaqelendirilir. Meselen, efsaneye göre, Sirab (Babek rayonu) kendi qarşısındakı Şişdağın, Nurs (Şahbuz rayonu) kendi yaxınlığındakı Toxluqayanın adları da Nuh Nebi ile bağlıdır. Bir efsaneye göre, Elincedağın da adını Nuh peyğember vermişdir.

"Nuhun tufanı" ndakı hadiselerin merkezinde insan ve tebiet dayanır. Eski çağlarla sesleşen bu efsane esatirlere çox yaxındır. Efsanede qedim insan tebiet qüvvelerini öz tanrıları ile bağlamış, ona qarşı mübarizeni de tanrıların ixtiyarından kenara çıxara bilmemişdir. "Nuhun tufanı" her iki dövrün esatiri görüşlerile bağlıdır.

Xalq efsanesinde ilan şer qüvve kimi verilmişdir. Efsanede ilanın şer qüvveler sırasında verilmesi, şübhesiz, ilanın totemliyinin inkarı ile bağlıdır. Xalq arasında işlenen "İlanın ağına da lenet, qarasına da", "İlanı görene, görüb öldürmeyene, öldürüb basdırmayana lenet" ve s. kimi meseller de ilanın totemliyinin inkarından sonrakı tarixi dövrün mehsulu olaraq meydana çıxmışdır.

Efsanede ilandan ferqli olaraq qaranquş xeyirxahlıq remzi kimi verilib. Efsanedeki şerte göre, Nuh dünyada en şirin nemeti ilana vermelidir. Bu meqsedle xeber getirmek üçün mozalanı, sonra qaranquşu gönderir. Qaranquş yolda mozalandan öyrenir ki, dünyada en şirin nemet insan etidir. Qaranquş hiyle işlederek mozalanın dilini qoparıb gelib yalandan Nuha en şirin nemetin torpaq olduğunu söyleyir. O, vaxtdan qaranquş xeyir xeber müjdeçisi olur. İlan ise menfileşir. Xaldey efsanesinde de buna oxşar bir melumat vardır. "Gemi Nizir dağı etrafına çatıb orada dayanır. Yeddi gün dalğalarda yırğalanandan sonra Sitnapistama bir göyerçin buraxır. Lakin göyerçin uça bilmeyib geri qayıdır. Sonra o, bir qaranquş buraxır. Nehayet, buraxılan qarğa görür ki, su azalır, qırıldayıb gemiye yaxınlaşır, sonra uçub gedir ve bir daha qayıtmır"(25, s. 26). "Nuhun tufanı" efsanesinde bu xeberi qarğa yox, deyildiyi kimi, qaranquş getirir. Nuh peyğember xeyir xeber getirmeyen qarğanı qarğıyır, onun evvelki ağ rengi deyişib qara reng alır. Daha doğrusu, mifik görüşlerdeki müsbet seciyyesini itiren qarğa bundan sonra bedxahlıq elameti kimi düşünülür. Nezerden keçirilen motivler arasında ferq olmasa da, daha çox benzerlik vardır. Maraqlıdır ki, Xaldey efsanesinden ferqli olaraq xalq efsanesindeki heyvanlar insanlar kimi danışırlar. "... Heyvanlar vasitesile ifade edilen bu remzin tarixi qedim efsanelerle, totemizmi etiqadları ile bağlıdır" (21, s.32). Görünür, xalq arasında qaranquşa, göyerçine ehtiram gösterilmesi bu qedim görüş ve etiqaddan doğub. Ümumiyyetle, "Nuhun tufanı" ndakı bir çox motiv ve epizodlar, ondakı ilan, qaranquş ve arının insan kimi remzi danışığı türk mifik görüşlerinin, daha doğrusu, arxaik şifahi yaradıcılığın mehsuludur. Araşdırmalar onu da demeye esas verir ki, şumerlerin "Bilqamıs" dastanı, motiv ve epizod baxımından Azerbaycan folklorundakı bezi esatir, efsane, revayet, nağıl ve dastanlarla kök yaxınlığına malikdir.




"Bilqamıs" eposunda vehşi Enkidu ehlileşdirilir, ona yemek, geymek qaydaları öyredilir. Buna çox oxşar olaraq xalq efsanesinde de Nuh yemek vermekle yarı vehşi Ac pehlevanı zehmete alışdırır. Onun qüvvesile meşeden neheng ve möhkem ağaclardan kes-



Büyük Ağrı Dağı'nın Gürbulak Gümrük Kapısı'ndan görünüşü (M. Lortoğlu)

dirib 7 mahir ustanın eli ile gemi düzeltdirir. Başqa bir efsaneye göre, Nuh çağırdığı ustaya deyir ki, gemini düzelt qızımı verim sene. İş leng getdiyinden o, iki usta da çağırır. Onlara da eyni sözü deyir. Nuhun bir qızı vardı. Gemi hazır olduqda bilmir ne etsin. Bu vaxt onun eşşeyi ve iti dönüb qız olur. Nuh ustanın heresine birini verir. Vaxt olur, Nuh qızlara baş çekib xasiyyetlerini soruşanda biri deyir ki, yaxşıdır. Nuh başa düşür ki, bu onun öz qızıdı. İkinci deyir çox ağırdı. Üçüncü deyir ki, söz deyende çemkirir. Nuh bilir ki, bunun biri eşşek, biri de itdir (8, s.68,69).

Geminin düzeldilmesi barede qedim variantda deyilir: "Sitnapistama" möhkem ve düz ağaclardan, qamışlardan, böyük gemi düzeldir, onu bayır ve içeri terefden qatranla suvayır (25, s.25). Sonuncu efsanede qızlarla bağlı epizodu nezere almasaq, efsane variantlarında geminin düzeldilmesi teferrüatı qedim varianta oxşardır. Bu da xalq efsane variantlarının daha çox bu variantdan qaynaqlandığı ehtimalını yaradır.

Xalq efsanesinde Nuhun gemisi bir neçe gün suda üzdükden sonra Ağrı- dağa toxunur. Efsanenin

qeyd olunan birinci variantına göre gemi Ağrıdağ terefden hereket edir ve bir neçe dağa toxunur. Nehayet, su yendikde ve hava işıqlanmağa başladıqda Elengez ve Gemiqaya dağları görünür. Nuh ona daha yaxın olan Elengezde dayanmaq isteyir.Burada geminin lövber salması üçün dayanacaq olmur.Gemi ikinci dağa Gemiqayaya yan alıb dayanır.

Xatırladaq ki, bugünkü azerbaycanlıların ecdadlarının oda inamı, etiqadı ile bağlı günbatan qaranlıq dünya, günçıxan işıqlı dünyadır. Meselen, "Tapdıq" nağılında demek olar ki, bu ikilik tesvir olunmuşdur (4, s.11). İşıq ve qaranlıq. Şer qüvvelerin esas meskeni günbatandakı Qaf dağı,yaxud qaranlıq dünyadır. Efsaneye göre, Nuh Nebi de günbatandan, yeni Naxçıvanın qerbinden hereket ederek şerqe doğru mesafe qet etmişdir.Naxçıvanın şerqinde, günçıxanda quruya çıxmışdır. Sonra Nuhun dabanı deyen yerde oğlanları yurd salıb adını "Nuhdaban" qoymuşlar. Demeli, efsaneye göre, heyat hem de işıqla bağlı yaranmışdır. Odur ki, Nuhun günbatandan, yeni qaranlıqdan, günçıxana işığa doğru hereketi esatiri baxımdan seciyyevidir. Esatire göre, işıq qaranlıqdan doğur. Bu mifik yaranış qedim kosmoqonik görüşlerle sesleşir. Bu menada bir-iki meseleni yada salaq.

Türk esatirine göre, Oğuz ana terefden işıqla elaqedardır. Onun anası Ay Qağandır. Eyni zamanda Oğuzun arvadları, uşaqları da işıqla bağlıdır (27, s.10,11).

Efsane ile "Kitabi -Dede Qorqud" boyları, obrazları arasındakı bezi oxşar, müşterek cehetleri göstermek de faydalıdır.

"Azerbaycan xalqı arasında tekce adamların deyil, hetta bütün eşyaların adlarının Qorqud terefinden qoyulması haqqında efsane vardır" (15, s.11).

Efsanede Nuh da Ağrı, İlandağ, Kemki, Elengez, Gemiqaya ve başqa dağlara ad vermişdir.

"Oğuzun ol kişi (Dede Qorqud-Y.S) tamam bilicisiydi. Ne derse olardı, qayibden dürlü xeber söylerdi" (15, s.14).Efsaneye göre, Nuh Nebi de bilirdi ki, dünyanın üzünü su alacaq. Bir gün Nuhun arvadı görür ki, tendir yarıyadek su ile dolub.Ehvalatı erine söyleyir.

Nuh deyir ki, dünyanın üzünü su alacaq. Yaxud, "Nuh peyğember gemi düzeltdirerken bir qoca Nuhdan soruşur:

-Yer üzünü ne zaman su alacaq?

-Gelin qaynana ile danışanda-deye Nuh cavab verir" (12, s.69). Bu deyilenlerden aydın olur ki, Nuh da ele Dede Qorqud kimi uzaqgörendir, qeybden xeberler verir.

Her iki suret arasında bele ve qeyd edilmeyen diger oxşarlıqlar var ki, bunların da hamısından danışmağa ehtiyac yoxdur. Lakin bunlar arasında ferqli cehetlerin olması da şübhesizdir. Bu da tebiidir. Beleki, bir-birinin eyni olan iki efsanevi şexsiyyet tapmaq çetindir. Efsanedeki Nuh da bezi türkdilli, o sıradan Azerbaycan türk esatirile bağlı görüşleri özünde toplamışdır.

Melumdur ki, "Dede Qorqud" eposundakı Tepegöz ve Basat süretleri şifahi xalq yaradıcılığının uzun inkişafının mehsuludur. Bu mifoloji obrazlarla efsanedeki Ac sureti arasında bezi oxşarlıqlar vardır.

Efsanede deyilir: "Meşede Ac adlı bir pehlevan yaşayırdı. İşi, peşesi el-obanın ilxısına, naxırına hücum edib ziyan vurmaq idi. Her öynede bir öküz yeyir, üstünden üç tuluq su içib doymurdu".

"Kitabi-Dede Qorqud" dastanında deyilir:

"Tepegöz Oğuzdan çıxdı. Bir uca dağa vardı. Yol kesdi, adam aldı, böyük herami oldu. Üzerine bir qaç adam gönderdiler. Ox atdılar-batmadı, qılınc vurdular-kesmedi. Süngüyle sancdılar ölmedi. Çoban-çoluq qalmadı, hep yedi. Oğuzdan dexi yemeye başladı"(15, s.116,117).

Lakin Acın vurduğu zererle Tepegözün vurduğu zerer arasında ferq vardır.

Acın el-obanın ilxısına hücüm etmesinde bir cesurluq özünü gösterir. Bu xüsusiyyetlere göre o, Tepegözden çox Basatı yada salır. Boydan melum olduğu kimi, Basatın da "aslan kimi at basıb, qan sormasında bir alplıq, qehremanlıq, ezemet, Tepegözün ona süd veren "ana" ların qanını sorub helak etmesinde ise celladlıq, xunxarlıq, rezalet vardır" (26, s.113).

"Basatı eve getirirler. Lakin o, dayanmayıb geri, aslan yatağına qaçır. Nehayet, elin başbileni, hamıya ad qoyan Dede Qorqud gelir, ona nesihet verir, belke de ele "at basıb qan sorduğuna" göre adını Basat (Bas-at) qoyub" (26, s. 113,114).Bundan sonra Basat Tepegözü öldürmekle Oğuzu beladan qurtarır. Ac da el-obadan kenar bir yerde-meşede yaşayır. Dede Qorqud kimi Nuh da Acı yanına çağırır, nesihet verir, evvelki peşesinden daşındırır.

Eposa göre Basatın ecdadı ağac kultu ile bağlıdır. Tepegöz Basatdan soruşur:

-"Alp eren, erden adın yaşırmaq eyib olur,
Adın nedir, yigid, degil mana-dedi.
Basat cavab verdi:
Anam adın sorar olsan, Qaba Ağac
Atam adın deyirsen Qoğan Aslan"(15, s.123).

Efsanede ise, Acın ecdadının ağacla bağlanmasına işare edilmir. Lakin onun meşede heyat sürmesinin esatiri sebebi ehtimal ki, ağac kultuna bağlılıqdan ireli gelmişdir. Bu da şübhesizdir ki, Oğuz qehremanlarına şexsi keyfiyyetlerine göre ad veril-

diyi kimi, efsanedeki pehlevana da acgözlüyüne göre Ac adı verilmişdir.

Ümumiyyetle, "Nuhun tufanı" ile "Dede Qorqud" boyları arasında başqa oxşarlıqlar da tapmaq mümkündür. Axtarsaq görerik ki, her iki folklor örneyinde bezi epizod ve obrazlar mifik baxımdan oxşar, yaxud eyni menşelidir. Bunu "Xilaskar qurd" efsanesi de gösterir. Efsaneye göre, Nuhun oğlu Türk qoyunla, qoçu götürüb gemiden torpağa düşende görür ki, bura her terefi su ile örtülü bir eceziredir. Onu burdan Boz qurd xilas edir.(9, s.29,30). "Qorqudun anası" efsanesinde ise Türk yeniden cezireye qayıdır ve bir qızla-deniz perisi ile görüşür. Qızdan Qorqud ata dünyaya gelir (9, s.32).

Göründüyü kimi, her iki efsaneye göre Qorqud ata Türkün oğlu, Nuh peyğemberin nevesidir. Yeni esatire göre, Dede Qorqudun soykökü Nuhla bağlıdır.

Uzaq keçmişde "insan tebiet üzerinde öz ağalığını qura bilmek üçün ilk növbede onun sirlerini öyrenmek zerureti qarşısında qalırdı. Lakin o, hele tebieti keşf ede bilmek seviyyesinden çox-çox aşağı durduğu üçün bu hakim sirleri özünün esatiri görüşleri ile şerh etmeye çalışırdı"(13, s.131).Bele esatiri görüşler folklorun başqa janrlarına göre mif ve efsanelerde daha yaxşı ifade olunub. Bu menada xalq efsanesinde qedim insanların tufandan xilas olmaq, yaxud felaket ve çetinliklerden qurtuluş yollarını axtarması folklorumuzda su mebudu İlyas, yaşıllıq tanrısı Xızır kimi Nuh peyğembere etiqaddan doğmuşdur.

Efsane variantlarına göre, gemi müxtelif yerlerde quruya çıxmışdır. Mesopotamiya erazisile bağlı bele variantlardan birine göre de gemi Neynava xarabalığı yaxınlığındakı Mosul şeheri yanında Decle çayının sağ sahilindeki Cudi dağında quruya çıxıb (24, s.111). Nuhu tarixi şexsiyyet hesab edib dünya tufanının baş vermesine real yanaşan müelliflerin olduğunu qeyd etdik. Eger bu beledirse, onda geminin hansı dağda quruya çıxdığını aydınlaşdırmaq olarmı? Bu çetin meseledir. Belke de mümkün deyil. Bizce, efsanede geminin uca dağların başında quruya çıxması fikri daha çox esatire bağlıdır.

Efsanelerde Nuhun yaşı çox mübaliğelidir. Tufan baş verende onun 600 yaşı olduğu ve 950 il ömür sürdüyü gösterilir. Qedim teqvimlerde bir ayın bir il hesablandığı da olub. Odur ki, bele il hesabları miladi ve hicri tarixile müqayisede qeyri-real görünür. Buna göre, Nuhun yaşı da ağılasığmazdır. Çünki tufan hadisesi gil lövhelerde yazıya alındıqda onun süjeti de, qehremanı Nuh da efsaneye-esatire dönmüşdür.

Efsane ile bağlı onu da qeyd etmeliyik ki, "Ağrı" sözünün ne zamansa müsteqil bir dağdan başqa, geniş eraziye-Kiçik Qafqazın bir hissesine, elece de Decle çayının şimal sahelerine aid edildiyi de iddia olunur" (23). Burada heqiqete uyğunluq ola biler. Çünki efsanenin antik yazılı ve şifahi variantlarında adı çekilen Nizir, Cudi, Ağrı, İnandağ, Kemki, Gemiqaya ve diger dağlar bu erazi hüdudlarındadır. Tarixen de bu yerler yerli türk tayfalarının yaşadığı eraziler sırasındadır. Decle çayının şimalı, İraqın türkmenler yaşayan hissesi defelerle Azerbaycanla bir dövletin terkibinde olub. Neticede tufan efsanesi bu erazide yaşayan soydaşlarımızın yaddaşında qorunaraq dövrümüze çatıb. Diger terefden Ağrı sözünün özü de etnik baxımdan türk soylarından birile bağlıdır.

Müasir türk folklorunda Ağrı sözünün "yüksek" menası veren aqrı, yaxud ağrı sözünden yarandığı haqqında fikir var (3, s.20). Biz, "Ağrı" sözünün Arqu adlı türk tayfa adı ile bağlı olduğu fikrindeyik. Arqu adlı türk tayfası Ağrıdağ etrafı ve Naxçıvan regionlarında yaşamışdır. Melum olduğuna göre, Ağrıdağın etrafındakı kendlerden birinin adı Arqudur. Naxçıvanın Ordubad bölgesinde Ağrı adlı kend indi de mövcuddur. Bunlar onu demeye esas verir ki, Ağrıdağın adı Arqu tayfa adından götürülmüşdür.

Ağrıdağ ile bağlı efsaneler, elece de Ağrı sözünün menşeyile bağlı fikirler gösterir ki, bu mekanlar eski türk soylarının vetenidir ve araşdırılan örnekler de onların poltik yaddaşının mehsuludur.

Elece de, efsane ile bağlı araşdırılan meseleler onu da gösterir ki, Azerbaycan türk folklorunun bu ve bezi örnekleri bir sıra xüsusiyyetlerine göre "Dede Qorqud" obrazları, motivlerile müeyyen oxşarlığa malik olmaqla eski şumer menbelerinden de qaynaqlanmışlar. Şumer menbelerinden qaynaqlanan "Nuhun tufanı" efsanesi türk mifologiyasındakı dağ, ağac, od, su, göy ile bağlı xüsusiyyetleri de qoruyub saxlamışdır. Bu menada aşağıdakı iki efsane de bunu göstermekdedir.

Bir efsaneye göre, Nuhun oğlu Enax Ucıbılıqla dostluq edirmiş. İkinci bir efsaneye göre ise, Ucıbı-



Iğdır'dan Büyük ve Küçük Ağrı Dağı'nın görünüşü (Z. Z. Acar)

lıqlar ayağının birini İlandağa, birini de Genni dağa qoyarmış. Eyilib deryadan balıq tutub gün işığında bişirib yeyermişler.

Su çekilir. Qoca cütcü Ucıbılığa şum eletmek isteyir. Ucıbılıq doyunca yemek istedikde qoca deyir.

-Yememişden Yere-göye and iç.

-Ucıbılıq bele edir. Yemekden yeyib doyur, şum edir. "Ucıbılıq" efsanesi

ile "Nuhun tufanı" arasında bir yaxınlıq vardır. Bura da "Nuhun tufanı"ndakı kimi deryadır. Sonra su çekilir. Efsanedeki Ucıbılıq "Nuhun tufanı"ndakı Ac pehlevanı yada salır. Orada Nuh Nebi Acı, burada qoca ekinçi Ucıbılığı halal emeye alışdırır.

Müqayiseden görünür ki, her iki nümune birbirine yaxın dövrün mehsuludur. Bunlardan ikincinin birinciden faydalandığını ehtimal etmek olar. İkinci nümune de esatire bağlıdır. Dövr etibarile islamdan çox evvellere aiddir. Nezerden keçirilen bu iki efsane onu da gösterir ki, "Nuhun tufanı" eski dövrlerden başlayaraq islamiyyete qederki Azerbaycan folkloruna xas çox xüsusiyyeti öyrenmeye imkan verir.

Azerbaycan folklorunda Ağrıdağla bağlı efsaneler az deyil. "Nuhun tufanı" ile bağlı efsanelerin de çoxu Ağrıdağla bağlıdır. Evvelde qeyd olunduğu kimi, tufan efsanelerinin merkezinde daha çox Ağrıdağ dayanır. Bele efsanelere göre Ağrıdağın adını Nuh peyğember verib. Başqa bir efsaneye göre, Nuh Ağrıdağda mesken salıb. Yer üzünde ondan başqa sağ qalan olmadığından allah-taala Nuha bir qadın gönderir. İnsan nesli Nuhla bu qadından yaranıb. Ele efsaneler de var ki, orda Ağrıdağ canlı tesvir olunur. Bele efsanelerden bezilerini nezerden keçirmeyi vacib hesab edirik.

Efsanelerden birine göre, Nuh Nebi gemini başı qaralan dağa sürdükde gördü ki, dağın başı darısqaldı, gemideki insan ve heyvanları tuta bilmez. Bu, Qısırdağ idi. Nuh dedi:

-Ey dağ, sen qısır qalmayacaqsan.

Dağ ağrı çekdi, bir oğlu oldu. Nuh dağa Ağrı, yanında baş qaldıran kiçiye ise Bala Ağrı adı verdi (4, s.243,244).

Yene efsaneye göre, Ağrı ve Qarnıyarıq dağları iki qardaş imiş. Kiçik qardaş Qarnıyarıq böyük qardaş Ağrının düşmenleri ile vuruşub onları meğlub edir. Geri dönende böyük qardaşın onun sevgilisini qaçırdığını eşidir, qeyzinden sinesi yarılıb dağa çevrilir, neticede Qarnıyarıq dağı yaranır. Bu xeberden başı ağrıyan böyük qardaş da dağa çevrilir, adına Ağrıdağ deyilir (14, s.9,7-9). Dağ motivli efsanelerden başqa birine göre, Ağrı dağları iki bacı imiş. Onlar dalaşanda kiçik bacı böyük bacıya deyir ki, başından qar, duman eskik olmasın. Böyük de kiçiye deyir ki, senin de başından ilan-cayan eskik olmasın (6, s.45).

Diger efsanede Ağrıdağla Haçadağ qonşu imiş. Onlar dalaşır. Haçadağ Ağrını vurur, Ağrı hamile olduğundan bala salır. Ağrıdağ da vurub Haçadağın başını iki yere bölür. Başı bölünen Haça dağ, Ağrının saldığı bala ise Bala Ağrı adlanır (9, s.13). Bu qebilden el arsında yaşayan başqa bir efsanede Ağrı ile Eleyiz dağları vuruşur. Ağrıdağ Eleyizin başını dörd bölür. Ona göre Eleyizin başı dörd haçadır.

"Ana Ağrıdağ, Bala Ağrıdağ" efsanesine göre, xan qızını seven çobanı öldürmek üçün onun arxasınca adam saldırır. Çoban gah Ana Ağrıdağa, gah da Bala Ağrıdağa penah aparır. Dağların başı şöhret davasına qarışdığından çobanın harayına yetişmirler. Bunu gören çoban allaha yalvarıb sürüsü ile daşa çevrilir. Başları davadan ayılan dağlar bunu gördükde birbirine qarğış edir. O vaxtdan Ana Ağrının başından duman, qar, Bala Ağrının başından ilanlar eskik olmaz (14, s.9,10). Qeyd edek ki, bu efsaneye oxşar nümunelerden biri "Qız-oğlan" qayası efsanesine göre zalım bir xanın qoyun sürüleri her yayı Gemiqaya (Ordubad rayonu) yaylaqlarına çıxarılarmış. Xanın gözel qızı bir çobanla ehd bağlamışdı. Lakin onlar xan ve adamları terefinden teqib olunduğundan son anda uca bir dağın başına çıxıb tanrıdan aman isteyirler. Haqq aşiqleri olduqlarından "daşa" dönüb ziyaretgaha çevrilirler (22, s.81).

Mezmunu xatırlanan efsanenin Ağrıdağla bağlı efsaneye oxşarlığı çoxdur. Bu epizodun epik tesvirine diger efsanelerde de rast gelmek olur. Azerbaycan efsanelerinin çoxu üçün seciyyevi olan bu halla bağlı danışılıb. Burda danışmağa ehtiyac yoxdur. Hem de mövzunun meqsedi bu deyil .

Doğrudan da, nezerden keçirilen efsanelerin çoxunda dağlar animist tesevvüre göre canlı insan kimi tesvir olunur, xatırlanan mifik sebeblere göre sonra dağa, daşa çevrilirler.

Azerbaycan folklorunda insanın vedine emel etmedikde tanrı, erenler, yaxud kultlar terefinden cezalandırılması seciyyevi haldır. Meselen, efsaneye göre, Ağrıdağdan keçen karvanı susuzluq yaxalayanda sarban ilahiden su dileyir, develerden birini qurban keseceyini ved edir. Ağrının başında bir göl yaranır, develer içib doyurlar. Sarban vedine emel etmedikde ilahinin qezebi tutur, sarbanı develerile daşa çevirir (4, s.244). İkinci bir efsaneye göre Ağrıdağda susuzluq çeken çoban yeddi qurban deyir. Bir çeşme yaranır, sürü içir. Çoban da vede emel etmeyib sürü ile daşa çevrilir.

Göründüyü kimi, birinci efsanede sarban, 2-ci efsanede çoban cezalandırılır. İnsanın "daşa çevrilme" üsulu ile cezalanması çox efsane üçün xarakterikdir. Lakin bir qrup efsane var ki, orda insanlar zülm ve

esaretden, qeddarlıqdan qurtulmaq üçün tanrıya yalvarıb daşa çevrilirler. Yeni insanlar mübarizenin çetin anlarında bezen "qurtuluş" yolunu tanrının ixtiyarında görübler. Nağıllarda bu epizodun ferqli formasına rast gelirik. Burada "daşa dönen"ler, adeten qorxmaz qehreman ve igidlerdir. Nağıllardan ferqli olaraq efsanelerde bele epizodlar, mifik tesewürler ekser halda konkret bir yerle-dağla, daşla , qaya ve s. ile bağlı olur. Folklor örneklerile yanaşı, tarixi menbe ve arxeoloji tapıntılar da tesdiq edir ki, eski çağlarda türk soyları daşa, quşa, heyvana da sitayiş etmişler (22, s.82,83).

Başqa bir efsaneye göre, dünyadakı lel-cevahirin çoxu Ağrıdağın altındakı mağarada yaşayan yeddi qardaş divin ixtiyarındadır. Divleri öldürüb lelcevahire sahib olmaq isteyen bir deste pehlevan nurani qocanın meslehetile atların qulunlarını mağaranın ağzında saxlayıb özlerini içeri sürürler. Onlar ecayib sesler eşidende atları geri dönderib ellerine ne keçdi götürürler. Divler onları qovduqda atlar qulunlarının havasına quş kimi uçaraq balalarına çatanda kişneyib qarışır bir-birilerine. Divler bundan qorxub geri qayıdırlar. Pehlevanlar baxırlar ki, götürdüklerinin hamısı qızıldı. Götüren peşman olur ki, gerek çox götürerdi. Götürmeyen de peşman olur ki, niye götürmeyib (9, s.106,107).

Qısa mezmunu verilen efsanelerde esatiri motivlerle yanaşı, esatiri obrazlar da diqqeti çekir. Bunlardan biri nurani qoca, digeri div suretleridir. Nurani qoca Azerbaycan efsaneleri ile yanaşı, nağıl ve dastanlarında çox görünen efsanevi obrazdır. Bezi nağıl ve dastanlarda, efsanede olduğu kimi, bu efsanevi obrazın adı çekilmir. Ağrıdağla bağlı behs etdiyimiz efsanede nağıl ve dastanlardakı kimi, nurani qoca pehlevanlara yol gösterir, meslehet verir ve her şey de onun dediyi kimi olur. Bu onu gösterir ki, nurani qoca qeyri-adi insandır, müqeddesdir. Bezi nağıl ve dastanlarda, elece de efsanelerdeki nurani qoca-Xıdır,yaxud Xıdır İlyasdır. Bu efsanevi şexsiyyet darda qalanların kömeyine çatan bir erendir.

Efsanedeki, div sureti daha çox nağıllara xaçdır. Lakin bele efsanelerden görünür ki,div sureti arxaik efsanelerde de rast gelinen mifik suretlerden biridir. Efsanenin qedimliyini gösteren diger elamet, belke de, en qedimi burdakı Dağ kultuna işaredir. Bezi efsanelerde Ağrı dağlarının canlı düşünülmesi, dediklerinin çin olması, dağın mifik düşünceden doğan müqeddeslik, kultluq seciyyesile bağlıdır.



Büyük Ağrı Dağı'nın Aşağı Tavla Köyü'nden görünüşü (M. Lortoğlu)

Tedqiqat gösterir ki, "Nuhun tufanı" ve Ağrıdağla bağlı efsaneler süjet, motiv ve obrazlar baxımından daha çox bir-birile bağlı folklor örnekleridir. Bu örnekler menşeyine, seciyyesinin özünemexsuzluğuna göre Azerbaycan folklorunun arxaik nümuneleri sırasındadır. Bunlarda türk soylarının etnik-milli şüuru, bedii tefekkürü, keçmişinin eksi, dünyagörüşünün izleri yaşamaqdadır.

**İstifade olunmuş edebiyyat**


Axundov A. Araz ve Ar-Ras, "Elm ve heyat" jurn., Bakı, 1976, No 7.

Axundov A. Naşeva, yoxsa Naxçıvan, "Elm ve heyat" jurn., Bakı,1979, No 10.

Alpaslan İ. Ağrı, Ankara, 1995.

Azerbaycan folkloru antologiyası, 2-ci kitab. Bakı, Azerb. SSR EA neşr., 1968

Azerbaycan folkloru antologiyası. Naxçıvan folkloru, 1-ci kitab. Bakı, Sabah, 1994.

Azerbaycan xalq efsaneleri, Bakı, Yazıçı, 1985.

"Bilqamıs" dastanı, Bakı, Genclik, 1985.

El celengi, Bakı, Genclik, 1983.

Efsaneler, Bakı, Genclik, 1986.

Eliyev V. Azerbaycan tunc dövrünün boyalı qablar medeniyyeti, Bakı, Elm, 1977.

Ferzeliyev T. "Efsane" anlayışı ve Azerbaycan efsanelerinin tesnifine dair. Azerb. SSR EA xeberleri (edebiyyat, dil ve incesenet), 1978, No 1.

Xalq edebiyyatı, 1-ci cild. Bakı, Elm, 1982.

İbrahimov İ. Atalar sözü ve meseller. Azerbaycan şifahi xalq edebiyyatına dair tedqiqler, 1-ci kitab. Bakı, Azerb. SSR EA neşr., 1961.

Yanardağ efsaneleri. Bakı, Genclik, 1978.

Kitabi-Dede Qorqud. Bakı, Genclik, 1977.

Kim ne vaxt, ne üçün? Bakı, Azerb. Uşaq ve Gencler edebiyyatı neşr., 1962.

Kondratov A. Sirden biliye doğru, Bakı, Genclik, 1975.

Memmedov R. Naxçıvan şeherinin tarixi oçerki (orta esrler dövrü). Bakı, Elm, 1977.

Nebiyev N. Coğrafi adlar, Bakı, Azerneşr, 1982.

Nicat E. Tarixin sübh cağı. Bakı, Genclik, 1982.

Seyidov N. Azerbaycan nağıllarının bedii xüsusiyyetlerine dair bezi qeydler. Azerbaycan şifahi xalq edebiyyatına dair tedqiqler, 2-ci kitab. Bakı, Azerb. SSR EA neş., 1966.

Seferov Y. Azerbaycan folklorunda tarixilik, Bakı, Elm, 2005.

Seferli Y. "Nuhun tufanı" haqqında efsane ve heqiqet. "Şerq qapısı" qez., Naxçıvan, 1992, 24 yanvar.

Sema elçisi. Bakı, kitab palatası, 1991.

Sultanov R. "Nuhun tufanı" haqqında heqiqet, Bakı, Elm, 1971.

Tehmasib M. H. Azerbaycan xalq dastanları (orta esrler), Bakı, Elm, 1972.

Tehmasib M. H. Bir tarixi heqiqetin eposdakı izleri. Azerbaycan şifahi xalq edebiyyatına dair tedqiqler, vı kitab. Bakı, Elm, 1981.

Veliyev K. Elimizden, obamızdan. Bakı, Genclik, 1980.

Tolstova L. İstoriçeskiye predaniya yjnoqo priaralya, Moskva, Nauka, 1984.

Yampolьskiy Z. O znaçenii slova v imeni Naxiçevanь (k analizu imeni Naxiçevanь), Azerb. SSR AN izvestiya (seriya obşestvennıx nauk),1961,No 1